# Qarabağ Dirçəliş Fondu ilə AFFA arasında memorandum imzalanıb

**Sentyabrın 13-də Bakı Olimpiya Stadionunda Qarabağ Dirçəliş Fondu (QDF) ilə Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA) arasında əməkdaşlığa dair Anlaşma Memorandumunun imzalanması mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, memorandumu AFFA-nın icraçı vitse-prezidenti Elxan Məmmədov və QDF-nin İdarə Heyətinin sədri Rəhman Hacıyev imzalayıblar.

Anlaşma Memorandumuna əsasən, AFFA 2022-ci ildə Qətərdə keçiriləcək dünya çempionatının seçmə mərhələsi çərçivəsində Azərbaycan milli komandasının bütün ev oyunlarında bilet satışı zamanı əldə olunan gəlirin 10 (on) faizini QDF-yə ianə edəcək. Bundan başqa, AFFA tərəfindən Azərbaycan milli komandasının oyunları zamanı ictimaiyyət arasında ianəçilik mədəniyyətinin təbliğinə geniş yer veriləcək.

Memorandumun şərtlərinə uyğun olaraq, AFFA-nın dəstəyi ilə keçirilən digər peşəkar və həvəskar futbol turnirləri çərçivəsində də QDF-nin təşəbbüsləri dəstəklənəcək. Qarabağ Dirçəliş Fondu isə öz növbəsində keçirəcəyi tədbirlər zamanı AFFA-nı tərəfdaş kimi qeyd edəcək.

AFFA-nın icraçı vitse-prezidenti Elxan Məmmədov memorandumun imzalanmasının Azərbaycan Futbol Federasiyaları Assosiasiyası üçün çox vacib və bir o qədər də qürurverici hadisə olduğunu bildirib, bu əməkdaşlığın hər iki tərəf üçün uğurlu olacağına əminliyini ifadə edib. O, işğaldan azad edilən ərazilərin bərpa və quruculuğu istiqamətində görülən işlərə hamılıqla dəstək olmağın əhəmiyyətini vurğulayıb.

Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev bu təşəbbüsü yüksək qiymətləndirib, bu mühüm missiyanın iştirakçısına çevrildiyinə görə AFFA-ya minnətdarlığını bildirib.

"Qarabağı birlikdə daha tez və daha gözəl bərpa edəcəyik", - deyən fondun İdarə Heyətinin sədri bütün soydaşlarımızı bu məqsəd uğrunda həmrəy olmağa dəvət edib. O bildirib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və şanlı Ordumuzun qəhrəmanlığı nəticəsində azad etdiyimiz torpaqlarımızı indi cəmiyyətimizin iştirakı ilə bərpa etmək vaxtıdır.

Azərbaycan.- 2021.-14 sentyabr.- S.2.